

# HEYDƏR ƏLİYEV – 100

## BİBLİOQRAFİK MƏLUMAT KİTABI

BAKI DÖVLƏT UNİVERSİTETİ

# HEYDƏR ƏLİYEV – 100

## BİBLİOQRAFİK MƏLUMAT KİTABI

BAKI
DÖVLƏT
UNİVERSİTETİ

HEYDƏR ƏLİYEV

100

**Azərbaycan xalqının Ümummilli Lideri
Heydər Əliyevin 100 illik yubileyinə
ithaf olunur**



Azərbaycan xalqının Ümummilli Lideri

**Heydər Əliyev**

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# HEYDƏR ƏLİYEV – 100:
## BİBLİOQRAFİK MƏLUMAT KİTABI

BAKI – BDU –2024

Bakı Dövlət Universiteti Elmi Şurasının 27 oktyabr 2023-cü il tarixli
iclasının qərarı ilə (pr. № 11) nəşr olunur.

İdeya müəllifi: **Elçin Babayev -** Bakı Dövlət Universitetinin rektoru

Tərtib edən: **Solmaz Sadıqova,** tarix üzrə fəlsəfə doktoru, dosent

Elmi redaktor: **Ələmdar Bayramov**, filologiya üzrə fəlsəfə doktoru, dosent

Rəyçi: **Kərim Tahirov** – Azərbaycan Milli Kitabxanasının direktoru, professor

**Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı.** Bakı: BDU Nəşr Evi, 2024.-580 s.

Kitab Azərbaycan xalqının Ümummilli Lideri, Müstəqil Azərbaycan dövlətinin memarı, dünya şöhrətli siyasətçi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə hazırlanmışdır. Biblioqrafik məlumat kitabında Ulu Öndər Heydər Əliyevin nəşr edilmiş, eləcə də dahi şəxsiyyət haqqında yazılmış kitablar biblioqrafik üsulla sistemləşdirilərək oxuculara təqdim edilir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-546-96-5

© Bakı Dövlət Universiteti, 2024

## AZƏRBAYCAN RESPUBLİKASINDA 2023-CÜ İLİN “HEYDƏR ƏLİYEV İLİ” ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən

dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir.

Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan

dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü-Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il “Heydər Əliyev İli” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 sentyabr 2022-ci il

# TƏRTİBÇİDƏN

Ulu Öndər Heydər Əliyev haqqında biblioqrafik məlumat kitabı ilk dəfə 2003-cü ildə Bakı Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə çap olunmuşdur. Əməkdar elm xadimi, professor Abuzər Xələfov və dosent Solmaz Sadıqova tərəfindən tərtib olunmuş universal xarakterli bu biblioqrafik əsər görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan Respublikasının memarı Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyinə həsr olunmuşdur. Nəşrdə 544 adda kitabın biblioqrafik təsviri verilmişdir. Kitab Ulu Öndər Heydər Əliyev irsinin biblioqrafiyalaşdırılması sahəsində ilk addım olmaqla Azərbaycan (434 səhifə), rus (446 səhifə) və ingilis (455 səhifə) dillərində tərtib edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında “Heydər Əliyev İli” elan olunmuşdur. Bakı Dövlət Universitetinin Heydər Əliyev ili ilə bağlı Tədbirlər Planına müvafiq olaraq, ilk biblioqrafik əsərin işıq üzü görməsindən iyirmi il sonra “Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı” yenidən hazırlanmışdır və Bakı Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə nəşr edilmişdir.

2003-cü ildə çap olunmuş ilk biblioqrafik məlumat kitabında Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin qısa salnaməsinin kitaba daxil edilməsi nəşrin informasiya bazasını daha da zənginləşdirmişdir. Eyni zamanda qeyd olunmuşdur ki, biblioqrafik məlumat kitabının böyük həcmli gələcək nəşrlərində kitab daha da zənginləşdiriləcəkdir. Yeni biblioqrafik əsərdə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin salnaməsi tam verilmişdir.

Yeni nəşrdə Ulu Öndər Heydər Əliyevin əsərlərindən ibarət “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin 46 kitabının bir mənbə altında biblioqrafik təsviri verilmişdir. Həmçinin külliyyatın hər bir kitabının tərkibi açılmışdır. Bu, oxucuya biblioqrafik göstəricinin köməyi ilə çoxcildliyin hər bir cildi haqqında informasiya əldə etmək imkanı verir. Ümumiyyətlə, biblioqrafik məlumat kitabında 1433 adda mənbənin biblioqrafik təsviri verilmişdir.

“Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı” 4 hissədən ibarətdir. Birinci hissə “Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti” adlanır. Bu hissədə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin salnaməsi xronoloji ardıcıllıqla təqdim olunur. Hissənin ikinci yarımbölməsində birinci məlumat kitabından fərqli olaraq, Ulu Öndər Heydər Əliyevin təltifləri də verilmişdir. Üçüncü yarımbölmədə dünya liderlərinin, görkəmli şəxsiyyətlərin Ulu Öndər haqqında söylədikləri

qiymətli fikirlər, “Ulu Öndər Heydər Əliyevin müdrik kəlamları” adlı dördüncü yarımbölmədə isə müdrik rəhbərin qiymətli kəlamları əksini tapır.

“Ümummilli Lider Heydər Əliyevin kitab şəklində nəşr edilmiş əsərləri (1969-1990-cı illər)” adlı ikinci hissəsi üç yarımbölmədən ibarət olmaqla 1970-2013-cü illəri əhatə edir.

Kitabın “Ümummilli Lider Heydər Əliyev haqqında ədəbiyyat” adlı üçüncü hissəsi də özünün informasiya tutumu, əhatəliliyi ilə diqqəti cəlb edir. Burada materiallar 1980-2023-cü illəri əhatə etməklə səkkiz yarımbölmədə təqdim olunur. Bu hissədə Ulu Öndər Heydər Əliyev haqqında müdafiə olunmuş dissertasiyaların verilməsi də yenidir.

“Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı”nın “Yardımçı göstəricilər” adlanan dördüncü hissəsində Ulu Öndər Heydər Əliyevin əsərlərinin və Ulu Öndər Heydər Əliyev haqqında yazan müəlliflərin əlifba göstəricisi verilir. Biblioqrafik əsərə iki adda köməkçi aparatın verilməsi kitabdan istifadəni asanlaşdırır, məlumat axtarışını daha səmərəli edir.

Biblioqrafik əsər geniş oxucu kütləsi, müxtəlif elm sahələrində fəaliyyət göstərən alimlər, tədqiqatçılar, müəllimlər, tələbələr, ümumiyyətlə, bütün oxucu qrupları üçün əvəzsiz mənbə olacaqdır.

# ÖN SÖZ

Müstəqil, qüdrətli Azərbaycan dövlətinin banisi və qurucusu Ulu Öndər Heydər Əliyev ötən əsrin 70-ci illərindən başlayaraq xalqımızın və dövlətimizin qazandığı bütün uğurların memarıdır. Ulu Öndərin parlaq əməlləri, xalqına olan sonsuz sevgisi qədirbilən xalqımızın müdrik rəhbərimizə bəslədiyi sevgi, ehtiram, minnətdarlıq və ali hörmətlə birləşərək Ulu Öndər Heydər Əliyevi əlçatmazlıq zirvəsinə yüksəltmişdir. Dünyanın hər yerindən görünən bu zirvənin adı Heydər Əliyev zirvəsidir.

Əziz və unudulmaz xatirəsi hər zaman bizimlə olan Ulu Öndər Heydər Əliyev müdrik və cəsarətli qərarları, xalqımızın və dövlətimizin qüdrətlənməsi naminə apardığı məqsədyönlü və ardıcıl mübarizəsi ilə çoxəsrlik tariximizə Ulu Öndər, Ümummilli Lider adları ilə əbədi həkk olunmuşdur. Ulu Öndər Heydər Əliyevin adı bu gün bütün dünyada Azərbaycanla qoşa çəkilir. İllər ötdükcə dahi rəhbərin dövlətimizin və xalqımızın taleyindəki tarixi rolu, xilaskarlıq missiyasının böyüklüyü daha da aydınlaşır, qalib və qüdrətli ölkəmiz bu aydınlığın işığında inamla və qürurla daha böyük gələcəyə doğru addımlayır.

Qürurla, böyük minnətdarlıq və ali ehtiram hissləri ilə yola saldığımız 2023-cü ilin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi hər birimizdə xüsusi ovqat yaratdı. Məhz “Heydər Əliyev İli”ndə cənab Prezidentimizin rəhbərliyi ilə möhtəşəm uğurlarımızın davam etdirilməsi, suverenliyimizin, ərazi bütövlüyümüzün tam bərpa olunması, Qarabağda aparılmış lokal xarakterli antiterror əməliyyatları nəticəsində torpaqlarımızda separatçılığın kökünün biryolluq kəsilməsi, Xankəndidə, Əsgəranda, Ağdərədə, Xocalıda üçrəngli bayrağımızın dalğalanması, Xankəndi şəhərində möhtəşəm Zəfər Paradının keçirilməsi və saymaqla bitməyən uğurlarımız, qələbələrimiz bu ili daha da möhtəşəm etdi.

Ümummilli Lider Heydər Əliyev çıxışlarının birində deyirdi: “Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub”. Əminliklə söyləyirik ki, xalqımızın da başlıca amalı, məqsədi bütün dövrlərdə Heydər Əliyevin müdrik siyasətini dəstəkləmək, Ümummilli Liderin müəyyənləşdirdiyi siyasi yola hər zaman sadiqlik nümayiş etdirməkdir. Məhz bu uğurlu yol bu gün Ulu Öndərimizin layiqli davamçısı, möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin ardıcıl səyləri ilə davam

etdirilir. Bu ilin fevral ayında keçirilmiş, xalqımızın haqlı olaraq Zəfər Seçkisi adlandırdığı Prezident seçkilərində cənab İlham Əliyevin yüksək nəticə ilə qalib gəlməsi xalqımızın Heydər Əliyev siyasətinə, bu siyasətin parlaq davamına verdiyi növbəti tarixi qiymət idi. Xalqımız bununla bir daha bütün dünyaya nümayiş etdirdi ki, ölkəmizdə Heydər Əliyev siyasətinin alternativi yoxdur. Məhz bu siyasət nəticəsində hazırda Azərbaycan dünyanın qüdrətli, öz şərtlərini diktə edən, regionun taleyini müəyyənləşdirən, dünyanın siyasi taleyində xüsusi missiyası olan dövlətlərdən birinə çevrilib. Bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan misilsiz quruculuq işləri, əzəli torpaqlarımıza soydaşlarımızın əbədi qayıdışı hər birimizin gələcəyə inamını daha da artırır, hər birimizi yeni qələbələrə, yeni zəfərlərə səsləyir.

Bütün xalqımız kimi, Azərbaycan təhsilinin və elminin aparıcı qüvvəsi olan, Ulu Öndər Heydər Əliyevin - “Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam” - kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, “Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı” adlandırdığı Bakı Dövlət Universitetinin kollektivi də universitetimizin dünya şöhrətli məzunu, xalqımızın xilaskarı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan ildə silsilə tədbirlər, beynəlxalq konfranslar keçirdi, fundamental kitablar nəşr etdi və hazırda da bu proses davam etdirilir.

Bu baxımdan Bakı Dövlət Universitetində nəşrə hazırlanmış “Heydər Əliyev-100: Biblioqrafik məlumat kitabı” da təqdirəlayiqdir. Kitab özünün zəngin informasiya tutumu, əhatəliliyi, dolğunluğu ilə böyük əhəmiyyətə malikdir.

Bakı Dövlət Universitetinin “Heydər Əliyev İli” ilə bağlı Tədbirlər Planı əsasında hazırlanmış universal xarakterli bu biblioqrafik əsər Ulu Öndər Heydər Əliyevin hər kəsə örnək olan həyat və fəaliyyətinin öyrənilməsi, təbliği və eyni zamanda dahi rəhbərin zəngin irsinin tədqiqi üçün qiymətli mənbədir. Biblioqrafik göstərici ilk dəfə 2003-cü ildə Ulu Öndər Heydər Əliyevin 80 illik yubileyi münasibətilə BDU-nun professoru, Əməkdar elm xadimi Abuzər Xələfov və dosent Solmaz Sadıqova tərəfindən hazırlanmışdır. Həmin ənənənin davamı olaraq əsər İnformasiya və sənəd menecmenti fakültəsinin Sənəd menecmenti kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqova tərəfindən 2023-cü ildə yenidən işlənilmiş, eyni zamanda son iki onilliyin nəşrləri əhatə olunmaqla yeni materiallarla zənginləşdirilmişdir.

Əminik ki, gərgin əməyin, ciddi araşdırmaların nəticəsində meydana gəlmiş bu kitab geniş oxucu kütləsi, müxtəlif elm sahələrində fəaliyyət göstərən alimlər, müəllimlər, tələbələr tərəfindən böyük maraqla qarşılanacaq, biblioqrafik əsər xüsusilə tədqiqatçıların hər zaman bəhrələnəcəyi, öz elmi əsərlərində istinad edəcəkləri etibarlı informasiya mənbəyi olacaqdır.

**Elçin BABAYEV**
Bakı Dövlət Universitetinin rektoru

# I HİSSƏ

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ

## 1.1. ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN HƏYAT VƏ FƏALİYYƏTİNİN SALNAMƏSİ

| | |
|---|---|
| **1923-cü il 10 may** | Naxçıvan şəhərində anadan olmuşdur. |
| **1939-cu il** | Naxçıvan şəhər internasional pedaqoji məktəbini əla qiymətlərlə bitirmişdir. |
| **1939-1941-ci illər** | Azərbaycan Sənaye İnstitutunun (indiki Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. |
| **1941-1943-cü illər** | Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri işləmişdir. |
| **1943-1944-cü illər** | Naxçıvan Muxtar Respublikasının Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində çalışmışdır. |
| **1944-1969-cu illər** | Dövlət təhlükəsizlik orqanlarında fəaliyyət göstərmişdir. |
| **1950-ci il** | Sankt-Peterburq (Leninqrad) milli təhlükəsizlik orqanları məktəbini əla qiymətlərlə bitirmişdir. |
| **1950-ci il** | Dövlət Təhlükəsizlik Komitəsində bölmə rəisi vəzifəsinə təyin olunmuşdur. |
| **1951-ci il** | Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur. |
| **1953-cü il** | Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi təyin edilmişdir. |
| **1957-ci il** | Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. |

| | |
|---|---|
| **1964-1967-ci illər** | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini vəzifəsində çalışmışdır. |
| **1967-1969-cu illər** | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində çalışmışdır. |
| **1969-1982-ci illər** | Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin I katibi vəzifəsində çalışmışdır. |
| **1970-ci il 23 may** | Yarım əsr partiyanın mübariz sıralarında: “Kommunist” qəzetinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış etmişdir. |
| **1970-ci il 6 iyun** | Kommunistlərlə bitərəflərin sarsılmaz ittifaqı: seçicilərlə görüşmüşdür. |
| **1970-1978-ci illər** | Dövlət, Partiya, Parlament nümayəndələrinin rəhbəri kimi Misir, Liviya, İordaniya, Vyetnam, Pakistan, İraq, Suriya, Bolqarıstan, Meksika, Fransa və digər ölkələrdə səfərlərdə olmuşdur. |
| **1970-ci il 11 avqust** | Sov.İKP MK iyul (1970-ci il) plenumunun qərarlarını və “Azərbaycan SSR-in xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında” Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1970-ci il 23 iyul tarixli qərarını yerinə yetirmək |

| | |
|---|---|
| | sahəsində respublika partiya təşkilatının vəzifələri barəsində Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1970-ci il 29 sentyabr** | Kür Bakıya axır: Yeni su magistralının birinci növbəsinin təntənəli açılışında 89-cu kilometr Nasos stansiyasında aqreqatı işə salmışdır. |
| **1970-ci il 2 oktyabr** | Azərbaycan Sovet Sosialist Respublikasının və Azərbaycan Kommunist Partiyasının 50 illiyi münasibətilə məruzə etmişdir. |
| **1970-ci il 3 oktyabr** | Azərbaycan komsomolunun 50 illiyində çıxış etmişdir. |
| **1970-ci il 20 noyabr** | Azərbaycan komsomolunun 50 illiyi münasibətilə M.F.Axundov adına Opera və Balet teatrının binasında təntənəli plenumda iştirak etmişdir. |
| **1970-ci il 3 dekabr** | “Azərbaycan SSR-in kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında” Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarını yerinə yetirmək sahəsində respublika partiya təşkilatının vəzifələri barəsində Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |

| | |
|---|---|
| **1971-ci il 10 mart** | F.Dzerjinski adına klubda Azərbaycan Kommunist partiyasının XXVIII qurultayının açılışını etmişdir.<br><br>Azərbaycan Kommunist Partiyasının XXVIII qurultayına Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hesabatında məruzə etmişdir. |
| **1971-ci il 1 aprel** | Sov.İKP MK-nın XXIV qurultayında "Partiya bizi kommunizmə aparır" adlı məruzə ilə nitq söyləmişdir. |
| **1971-ci il 11 iyun** | Bütün qüvvələr Sov.İKP MK XXIV qurultayının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar seçicilərlə görüşmüşdür. |
| **1971-ci il 16 iyul** | "Bütün qüvvələri Sov.İKP MK-nın XXIV qurultayı qərarlarının yerinə yetirilməsinə sərf etməli" Azərbaycan KP MK-nın plenumunda nitq söyləmişdir. |
| **1971-ci il 28 sentyabr** | "Beşilliyin birinci ilinin tapşırıqlarını şərəflə yerinə yetirməli" Sov.İKP MK-də keçirilən müşavirədə çıxış etmişdir. |
| **1971-ci il 20 oktyabr** | "Milli azadlıq hərəkatı və müasir antikommunizmə qarşı mübarizə məsələləri" adlı Bakıda keçirilən elmi |

| | |
|---|---|
| | konfransda giriş sözü ilə çıxış etmişdir. |
| **1971-ci il 29 oktyabr** | “Sov.İKP XXIV qurultayının qərarları ilə əlaqədar olaraq ideoloji işi daha da gücləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında” Azərbaycan KP MK-nın plenumunda məruzə etmişdir. |
| **1972-ci il 15 may** | “SSRİ-nin təşkil edilməsinin 50 illiyinə hazırlıq sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında” Azərbaycan KP MK-nın plenumunda məruzə etmişdir. |
| **1972-ci il 14 iyun** | 1971-ci ildə kənd təsərrüfatında Ümumittifaq sosializm yarışının yekunlarına görə Azərbaycan SSR-ə SSRİ Nazirlər Sovetinin və ÜİHİMŞ-nin keçici Qırmızı bayrağı verilmiş və bu fəxri mükafatın respublikaya təqdim edilməsi münasibətilə F.Dzerjinski adına klubda kənd təsərrüfatı fəallarının təntənəli yığıncağında iştirak etmişdir. |
| **1972-ci il 20 iyun** | Georgi Dimitrovun anadan olmasının 90 illiyi şənliklərində iştirak etmək üçün Bakıya gəlmiş Bolqarıstan KP MK-nın üzvü, Bolqarıstan Xalq Respublikasının Sovet İttifaqındakı |

| | |
|---|---|
| | səfiri Stoyan Gurov yoldaşı qəbul etmişdir. |
| **1972-ci il 3 oktyabr** | Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günlərinin təntənəli açılışında çıxış etmişdir. |
| **1972-ci il 13 oktyabr** | Alman-Sovet Dostluğu Cəmiyyətinin sədri doktor Lotar Bolts başda olmaqla cəmiyyətin respublikamıza gəlmiş nümayəndə heyətini qəbul etmişdir. |
| **1972-ci il 20 oktyabr** | Yuqoslaviyanın Sarayevo şəhərinin Bakıya qonaq olan nümayəndə heyətini qəbul etmişdir. |
| **1972-ci il 2 noyabr** | Böyük Oktyabr Sosialist İnqilabının 55-ci ildönümü bayramı ərəfəsində Azərbaycan KP MK-da Sovet İttifaqı Qəhrəmanları və Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunanlar üçün qəbulda çıxış etmişdir. |
| **1972-ci il 11 dekabr** | Azərbaycan SSR Nazirlər Soveti Bakı şəhərində tikilib qurtarmış saraya Vladimir İliç Leninin adının verilməsini qərara almış və açılış mərasimində iştirak etmişdir. |
| **1972-ci il 12 dekabr** | Rumıniyanın Piteşti şəhərinin nümayəndə heyətini qəbul etmişdir. |
| **1972-ci il 13 dekabr** | Birinci Zaqafqaziya Sovetlər qurultayının 50 illiyi şərəfinə |

| | |
|---|---|
| | xatirə lövhəsinin açılışında iştirak etmişdir. |
| **1972-ci il 30 dekabr** | Azərbaycan SSR-in Xalqlar dostluğu ordeni ilə təltif edilməsinə həsr olunmuş Ümumbakı iclasında çıxış etmişdir. |
| **1973-cü il 20 fevral** | Sov.İKP MK dekabr (1972-ci il) plenumunun yekunları və Respublika partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1973-cü il 19 aprel** | Respublika partiya fəalları yığıncağında məruzə etmişdir. |
| **1973-cü il 29 may** | Kənd təsərrüfatının müvəffəqiyyətlərini möhkəmlətməli və artırmalı: Respublika SSRİ Nazirlər Sovetinin və ÜİHİMŞ-nin keçici Qırmızı bayrağının təqdim edilməsində nitq söyləmişdir. |
| **1973-cü il 2 avqust** | Bolqarıstan Xalq Respublikası Dövlət Şurasının sədri Todor Jivkovu qəbul etmişdir. |
| **1973-cü il 2 oktyabr** | “Kənd əməkçiləri yeni müvəffəqiyyətlərə doğru” mövzusunda nitq söyləmişdir. Sov. İKP MK-nın SSRİ Nazirlər Sovetinin ÜİHİMŞ-nin və ÜİLKGİ MK-nın |

| | |
|---|---|
| | Qırmızı bayrağı Azərbaycan SSR-ə təqdim edilmişdir. |
| **1973-cü il 3 oktyabr** | Respublika partiya və təsərrüfat fəallarının yığıncağında məruzə etmişdir. |
| **1973-cü il 11 noyabr** | Moskvada sülhsevər qüvvələrin Ümumdünya konqresində iştirak etmiş, Banqladeş Xalq Respublikası nümayəndə heyətinin üzvlərini qəbul etmişdir. |
| **1973-cü il 20 noyabr** | Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda “Respublikada tərəvəz, kartof və meyvə istehsalının və tədarükünün daha da artırılmasını təmin etməli” Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1973-cü il 23 noyabr** | Dağlıq Qarabağ Muxtar Vilayətinin 50 illiyi: Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin və Vilayət Zəhmətkeş Deputatları Sovetinin təntənəli iclasında nitq söyləmişdir. |
| **1974-cü il 9 yanvar** | Bakıda səfərdə olan Çexoslovakiyanın Sovet İttifaqındakı səfiri Yan Qavelkanı qəbul etmişdir. |
| **1974-cü il 16 yanvar** | Azərbaycan SSR-ə Xalqlar Dostluğu ordeninin təqdim edilməsi münasibətilə V.İ.Lenin adına sarayda |

| | |
|---|---|
| | Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Azərbaycan SSR Ali Sovetinin birgə təntənəli iclasında nitq söyləmişdir. |
| **1974-cü il 7 fevral** | 41-ci Bakı şəhər partiya konfransında nitq söyləmişdir. |
| **1974-cü il 18 fevral** | Azərbaycan AKGİ XXIX qurultayında çıxış etmişdir. |
| **1974-cü il 27 fevral** | Azərbaycan SSR-ə Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin ÜİHİMŞ-nin və UİLKGİ MK-nın Qırmızı bayrağının təqdim edilməsi münasibətilə V.İ.Lenin adına sarayda respublika zəhmətkeşlərinin nümayəndələrinin təntənəli yığıncağında nitq söyləmişdir. |
| **1974-cü il 11 aprel** | Xam torpaqlardan istifadə edilməsinin 20 illiyi münasibətilə Alma-Atada təntənəli iclasda Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev yoldaşın nitqi ilə əlaqədar olaraq respublika partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK-nın plenumunda məruzə etmişdir. |
| **1974-cü il 14 may** | “Azərbaycan qadını” jurnalının 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitq söyləmişdir. |
| **1974-cü il 31 may** | Azərbaycan Dram Teatrının 100 illiyi münasibətilə |

| | |
|---|---|
| | V.İ.Lenin adına sarayda təntənəli yığıncaqda çıxış etmişdir. |
| **1974-cü il 11 iyun** | Partiya ilə xalqın birliyi: seçicilərlə görüşdə nitq söyləmişdir. |
| **1974-cü il 12 iyun** | Sov.İKP XXIV qurultayının qərarları ilə əlaqədar olaraq respublika zəhmətkeşlərinə ticarət və məişət xidmətini daha da yaxşılaşdırmaq tədbirləri haqqında Azərbaycan KP MK-nın plenumunda məruzə etmişdir. |
| **1974-cü il 4 oktyabr** | Naxçıvan MSSR-in 50 illiyi münasibətilə Naxçıvan Vilayət Komitəsinin və Naxçıvan MSSR Ali Sovetinin birgə təntənəli iclasında nitq söyləmişdir. |
| **1974-cü il 15 oktyabr** | "Kənd əməkçiləri, yeni qələbələrə doğru!" Azərbaycan zəhmətkeşləri nümayəndələrinin yığıncağında çıxış etmişdir. |
| **1974-cü il 8 dekabr** | Sov.İKP XXIV qurultayının qərarları ilə əlaqədar olaraq məhsulun keyfiyyətini daha da yüksəltmək üçün zəhmətkeşləri səfərbərliyə almaq sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında Azərbaycan KP MK-nın plenumunda məruzə etmişdir. |

| | |
|---|---|
| **1974-cü il 26 dekabr** | Sov.İKP MK dekabr (1974-cü il) plenumunun yekunları və respublika partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK-nın plenumunda məruzə etmişdir. |
| **1975-ci il 7 yanvar** | Bakı şəhərinin Balaxanı-Sabunçu rayonuna V.İ.Leninin adının verilməsinin 50 illiyi münasibətilə Lenin Rayon Partiya Komitəsinin və rayon zəhmətkeş deputatları Sovetinin Azərbaycan paytaxtı partiya və ictimai təşkilatçıları nümayəndələrinin iştirakı ilə keçirilən təntənəli iclasda nitq söyləmişdir. |
| **1975-ci il 11 mart** | "Beşilliyi zəfərlə başa vuraq!" Azərbaycan zəhmətkeşləri yığıncağında nitq söyləmişdir. |
| **1975-ci il 19 mart** | Beşilliyə komsomol raportu: Respublika komsomol fəallarının yığıncağında nitq söyləmişdir. |
| **1975-ci il 7 may** | Böyük Vətən müharibəsində sovet xalqlarının qələbəsinin 30 illiyi münasibətilə Bakı zəhmətkeşlərinin təntənəli yığıncağında məruzə etmişdir. |
| **1975-ci il 10 iyun** | Partiya ilə xalqın sarsılmaz birliyi: seçicilərlə görüşdə nitq söyləmişdir. |

| | |
|---|---|
| **1975-ci il 13 avqust** | Pambıqçılıq rayonları rəhbərlərinin zona müşavirələri: Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi Bərdədə və İmişlidə zona müşavirələri keçirmişdir. Zona müşavirələrində nitq söyləmişdir. |
| **1975-ci il 28 avqust** | 1975-ci ildə Moskvanın, Leninqradın və ölkənin başqa şəhərlərinin əsas ali məktəblərinə qəbul olunmuş, habelə həmin məktəblərdə təhsil alan tələbələrlə V.İ.Lenin adına sarayda keçirilmiş görüşdə nitq söyləmişdir. |
| **1975-ci il 23 sentyabr** | Elmlər Akademiyasına Xalqlar Dostluğu ordeninin təqdim edilməsi münasibətilə V.İ.Lenin adına sarayda təntənəli ümumi yığıncaqda nitq söyləmişdir. |
| **1975-ci il 2 oktyabr** | Azərbaycanda sovet ədəbiyyatı günlərinin təntənəli açılışında nitq söyləmişdir. |
| **1975-ci il 13 oktyabr** | Pambıqçılıq rayonları rəhbərlərinin zona müşavirələri: Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi Bərdədə və Sabirabadda zona müşavirələri keçirmişdir. Zona müşavirələrində nitq söyləmişdir. |

| | |
|---|---|
| **1975-ci il 31 oktyabr** | "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Soveti qərarlarının yerinə yetirilməsi sahəsində respublika partiya təşkilatının vəzifələri barəsində Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1975-ci il 23 dekabr** | Sov.İKP XXIV qurultayının hazırladığı sülh proqramının həyata keçirilməsi haqqında Bakıda Ümumittifaq elmi konfransında məruzə etmişdir. |
| **1975-ci il 25 dekabr** | Məişət kondisionerləri zavodu işə düşdü: Bakı zəhmətkeşləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1976-cı il 8 aprel** | Partiyanın və xalqın görkəmli oğlu Məşədi Əzizbəyovun Bakıda abidəsinin açılışında iştirak etmişdir. |
| **1976-cı il 10 aprel** | Kommunizm uğrunda alovlu mübariz Məşədi Əzizbəyovun anadan olmasının 100 illiyi şərəfinə təntənəli yığıncaqda nitq söyləmişdir. |
| **1976-cı il 13 aprel** | Sov. İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-nin və ÜİLKPGİ MK-nın |

| | |
|---|---|
| | Qırmızı bayrağını Lenin rayonuna təqdim etmişdir. |
| **1976-cı il 16 aprel** | Ölkəmizdə neftmaşınqayırma sənayesinin ilk müəssisəsi olan leytenant Şmidt adına Lenin ordenli zavodun Qırmızı Əmək ordeni ilə təltif edilməsi münasibətilə M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet teatrında təntənəli yığıncaqda nitq söyləmişdir. |
| **1976-cı il 12 may** | Asiya və Afrika xalqlarının IV sovet həmrəylik konfransının təntənəli açılışında nitq söyləmişdir. |
| **1976-cı il 26 may** | "Xalqa kömək işinə xidmət etməli!" Azərbaycan Yazıçılarının VI qurultayının açılışında nitq söyləmişdir. |
| **1976-cı il 26 iyun** | Sov.İKP XXV qurultayının qərarları ilə əlaqədar olaraq əsaslı tikintini yaxşılaşdırmaq sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1976-cı il 23 iyul** | Respublika pambıqçılarının müşavirəsində çıxış etmişdir. |
| **1976-cı il 18 oktyabr** | "1976-1980-ci illərdə respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin təkliflərinin |

| | |
|---|---|
| | nəzərdən keçirilməsi nəticələri barəsində" Sov.İKP MK-nın qərarlarını yerinə yetirmək sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1976-cı il 18 noyabr** | Səməd Vurğunun anadan olmasının 70 illiyi şərəfinə təntənəli gecədə iştirak etmişdir. |
| **1976-cı il 24 noyabr** | Sov.İKP MK oktyabr (1976-cı il) plenumunun qərarları ilə və MK-nın baş katibi L.İ.Brejnev yoldaşın nitqi ilə əlaqədar olaraq respublika partiya təşkilatının vəzifələri haqqında KP MK plenumunda məruzə etmişdir. |
| **1976-cı il 24 dekabr** | Bakı zəhmətkeşləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1976-cı il 28 dekabr** | "Yuxarı Xanbulançay su təsərrüfatı kompleksi işə salınmışdır" Lənkəran rayonu zəhmətkeşləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1976-cı il 29 dekabr** | Böyük Qafqaz dağlarında su quyusu kompleksinin açılışında nitq söyləmişdir. |
| **1977-ci il 20 yanvar** | V.İ.Lenin adına sarayda təntənəli yığıncaqda nitq söyləmişdir. |

| | |
|---|---|
| **1977-ci il 9 fevral** | “1977-ci ilin və bütün beşilliyin sosialist öhdəliklərini şərəflə yerinə yetirməli, böyük oktyabrın 60 illiyini layiqincə qarşılamalı” mövzusunda respublika fəallar yığıncağında məruzə etmişdir. |
| **1977-ci il 4 mart** | Respublika Həmkarlar İttifaqının XV qurultayında nitq söyləmişdir. |
| **1977-ci il 24 mart** | Bakıya Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, UİHİMŞ-nin və UİLKGİ MK-nın keçici Qırmızı bayrağının təqdim edildiyi mərasimdə nitq söyləmişdir. |
| **1977-ci il 20 aprel** | Böyük oktyabrın 60 illiyinə hazırlıq görülməsi və istehsalın səmərəliliyini və işin keyfiyyətini yüksəltməyə dair Sov.İKP XXV qurultayı qərarlarının respublika partiya təşkilatı tərəfindən yerinə yetirilməsi haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1977-ci il 10 iyun** | Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1977-ci il 7 iyul** | SSRİ konstitusiyasının layihəsi və Azərbaycan SSR zəhmətkeş deputatları sovetləri Sov.İKP MK-nın may (1977-ci il) plenumunun qərarlarından |

| | |
|---|---|
| | və Sov.İKP-nin baş katibi L.İ.Brejnev yoldaşın məruzəsindən irəli gələn vəzifələri haqqında məruzə etmişdir. |
| **1977-ci il 27 avqust** | Tələbələrin respublikanın partiya və sovet fəalları ilə görüşündə nitq söyləmişdir. |
| **1977-ci il 17 oktyabr** | Respublika partiya fəalları yığıncağında məruzə etmişdir. |
| **1977-ci il 28 oktyabr** | Respublika zəhmətkeşləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1977-ci il 25 noyabr** | Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun bayrağına əmək bayrağı ordeni sancaraq nitq söyləmişdir. |
| **1977-ci il 26 noyabr** | Bakının vətənimizin yüksək ordeni ilə təltif edilməsi münasibətilə V.İ.Lenin adına sarayda respublika paytaxtının əməkçiləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1977-ci il 10 dekabr** | Ulyanovsk zəhmətkeşləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1977-ci il 19 dekabr** | Bakıda F.E.Dzerjinskinin abidəsinin açılışında çıxış etmişdir. |
| **1977-ci il 27 dekabr** | Sov.İKP MK noyabr (1977-ci il) plenumunun yekunları və respublika partiya |

| | |
|---|---|
| | təşkilatının plenumunun qərarlarından və Sov.İKP MK-nın baş katibi, SSRİ Ali Soveti Rəyasət heyətinin sədri L.İ.Brejnev yoldaşın plenumdakı çıxışından irəli gələn vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1978-ci il 2 fevral** | Təsərrüfatlararası kooperasiya və aqrar-sənaye inteqrasiyası əsasında kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılmasını və təmərküzləşdirilməsini daha da inkişaf etdirmək sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1978-ci il 4 fevral** | "Kənd təsərrüfatının daha da inkişaf etdirilməsinin magistral yolu" mövzusunda məruzəsi ətrafında müzakirələr aparılmışdır. |
| **1978-ci il 24 mart** | Bakıya Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, UİHİMŞ-nin və UİLKGİ MK-nın keçici Qırmızı bayrağı təqdim edildiyi mərasimdə nitq söyləmişdir. |
| **1978-ci il 20 aprel** | Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında məruzə etmişdir. |

| | |
|---|---|
| **1978-ci il 19 iyul** | Sov.İKP MK noyabr (1978-ci il) plenumunun yekunları və respublika partiya təşkilatının Sov.İKP MK plenumunun qərarlarından və "SSRİ kənd təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında" L.İ.Brejnev yoldaşın plenumdakı çıxışından irəli gələn vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1978-ci il 30 avqust** | Respublikanın partiya və sovet fəalları ilə tələbələrin görüşündə nitq söyləmişdir. |
| **1978-ci il 20 oktyabr** | Sov.İKP XXV qurultayı qərarlarının yerinə yetirilməsi gedişi və Bakıda şənliklər zamanı L.İ.Brejnev yoldaşın nitqində və çıxışlarındakı müddəaları və göstərişləri həyata keçirmək sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1978-ci il 14 dekabr** | Sov.İKP MK noyabr (1978-ci il) plenumunun yekunları və respublika partiya təşkilatının plenumunun qərarlarından və Sov.İKP MK-nın baş katibi, SSRİ Ali Soveti Rəyasət heyətinin sədri L.İ.Brejnev yoldaşın plenumdakı çıxışından irəli gələn vəzifələri haqqında Azərbaycan KP MK |

| | |
|---|---|
| | plenumunda məruzə etmişdir. |
| **1979-cu il 24 yanvar** | 43-cü Bakı partiya konfransında nitq söyləmişdir. |
| **1979-cu il 22 fevral** | Azərbaycan SSR-ə Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, UİHİMŞ MK-nın Qırmızı bayrağının təqdim edilməsi mərasimində çıxış etmişdir. |
| **1979-cu il 25 aprel** | Ümumittifaq elmi-praktik konfransında məruzə etmişdir. |
| **1979-cu il 17 iyul** | "İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında" Sov.İKP MK-nın qərarını yerinə yetirmək sahəsində respublika partiya təşkilatının vəzifələri barəsində Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1979-cu il 29 avqust** | Birinci kurs tələbələrinin respublika partiya və sovet fəalları ilə görüşündə nitq söyləmişdir. |
| **1979-cu il 9 oktyabr** | Respublika təbliğatçı fəallarının yığıncağında nitq söyləmişdir. |
| **1979-cu il 5 noyabr** | Respublika zəhmətkeşləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1979-cu il 19 noyabr** | "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha |

| | |
|---|---|
| | da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1979-cu il 22 fevral tarixli qərarını yerinə yetirmək sahəsində respublika partiya təşkilatının vəzifələri barəsində Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1979-cu il 11 dekabr** | "Məhsulun keyfiyyətini hər vasitə ilə yüksəltməli" adlı Respublika elmi-praktik konfransında məruzə etmişdir. |
| **1979-cu il 18 dekabr** | Sov.İKP MK noyabr (1979-cu il) plenumunun yekunları və respublika partiya təşkilatının plenumunun qərarlarından və Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev yoldaşın plenumdakı nitqindən irəli gələn vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1979-1982-ci illər** | Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd olmuşdur. |
| **1980-ci il 18 yanvar** | P.A.Caparidzenin anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli yığıncaqda məruzə etmişdir. |
| **1980-ci il 4 fevral** | Azərbaycan KP MK plenumunda nitq söyləmişdir. |

| | |
|---|---|
| **1980-ci il 19 mart** | Azərbaycan zəhmətkeşləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1980-ci il 18 aprel** | Bakıda XI Qızıl Ordunun şərəfinə abidənin təntənəli açılışında nitq söyləmişdir. |
| **1980-ci il 22 aprel** | Bakıda SSRİ xalqları dostluğu sarayının açılışında nitq söyləmişdir. |
| **1980-ci il 25 aprel** | Azərbaycan SSR-in və Azərbaycan Kommunist Partiyasının 60 illiyində məruzə etmişdir. |
| **1980-ci il 16 may** | Respublika partiya-təsərrüfat fəallarının yığıncağında nitq söyləmişdir. |
| **1980-ci il 17 may** | Azərbaycan mədəniyyət xadimlərinə mükafatların təqdim olunması mərasimində nitq söyləmişdir. |
| **1980-ci il 28 may** | Ali məktəb işçilərinin respublika müşavirəsində nitq söyləmişdir. |
| **1980-ci il 11 iyul** | Sov.İKP MK iyun (1980-ci il) plenumunun yekunları və onun qərarları, Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev yoldaşın göstərişlərini yerinə yetirmək və Sov.İKP XXVI qurultayını ləyaqətlə qarşılamaq sahəsində Azərbaycan partiya təşkilatının vəzifələri haqqında məruzə etmişdir. |

| | |
|---|---|
| **1980-ci il 20 avqust** | Respublika partiya-təsərrüfat fəallarının yığıncağında nitq söyləmişdir. |
| **1980-ci il 30 avqust** | Qazaxıstan SSR-in və Qazaxıstan Kommunist partiyasının 60 illiyi münasibətilə Alma-Atada təntənəli iclasda çıxış etmişdir. |
| **1980-ci il 31 avqust** | Azərbaycan zəhmətkeşləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1980-ci il 3 noyabr** | Yazıçıların Ümumittifaq yaradıcılıq konfransı münasibətilə qəbulda çıxış etmişdir. |
| **1980-ci il 11 noyabr** | Sov.İKP MK noyabr (1980-ci il) plenumunun yekunları və respublika partiya təşkilatının plenumunun qərarlarından və Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev yoldaşın plenumdakı nitqindən irəli gələn vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1980-ci il 26 noyabr** | Azərbaycan komsomolunun 60 illiyi münasibətilə təntənəli iclasda nitq söyləmişdir. |
| **1980-ci il 29 noyabr** | Ermənistan SSR-in və Ermənistan Kommunist Partiyasının yaradılmasının 60 illiyi münasibətilə Ermənistan KP MK-nın və Ermənistan SSR Ali Sovetinin |

| | |
|---|---|
| | təntənəli iclasında nitq söyləmişdir. |
| **1981-ci il 7 yanvar** | 44-cü Bakı partiya konfransında nitq söyləmişdir. |
| **1981-ci il 29 yanvar** | Qurultayın iclasında yekun nitqi söyləmişdir. |
| **1981-ci il 30 yanvar** | Azərbaycan Kommunist Partiyasının XXX qurultayı bağlanarkən nitq söyləmişdir. |
| **1981-ci il 25 fevral** | Moskvada, Kremlin Qurultaylar sarayında Sovet İttifaqı Kommunist Partiyasının XXVI qurultayında nitq söyləmişdir. |
| **1981-ci il 17 mart** | Sov.İKP XXVI qurultayının yekunları və qurultayın qərarlarını, L.İ.Brejnev yoldaşın məruzəsindəki müddəaları və göstərişləri həyata keçirmək sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında respublika partiya fəalları yığıncağında məruzə etmişdir. |
| **1981-ci il 28 iyul** | Rayon rəhbərlərinin respublika seminar-müşavirəsində çıxış etmişdir. |
| **1981-ci il 29 avqust** | Respublikanın partiya və sovet fəallarının tələbə gənclərlə görüşündə nitq söyləmişdir. |

| | |
|---|---|
| **1981-ci il 3 sentyabr** | Bakıda Beynəlxalq gənclər konfransında nitq söyləmişdir. |
| **1981-ci il 26 sentyabr** | M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun yubileyi şərəfinə təntənəli yığıncaqda nitq söyləmişdir. |
| **1981-ci il 23 oktyabr** | Mirzə İbrahimova mükafat təqdim edilməsi mərasimində çıxış etmişdir. |
| **1981-ci il 31 oktyabr** | Respublika zəhmətkeşləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1981-ci il 2 dekabr** | Sov.İKP MK noyabr (1981-ci il) plenumunun yekunları və respublika partiya təşkilatının plenumunun qərarlarından və Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev yoldaşın plenumdakı nitqindən irəli gələn vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1982-ci il 4 yanvar** | Bakı zəhmətkeşləri nümayəndələrinin iclasında nitq söyləmişdir. |
| **1982-ci il 19 yanvar** | Respublika partiya-təsərrüfat fəalları yığıncağında məruzə etmişdir. |
| **1982-ci il 6 fevral** | Respublika həmkarlar ittifaqlarının XVI qurultayında nitq söyləmişdir. |

| | |
|---|---|
| **1982-ci il 22 fevral** | Partiya komitələri mühafizəçilərinin zona seminar-müşavirəsində nitq söyləmişdir. |
| **1982-ci il 5 mart** | Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1982-ci il 3 aprel** | Respublika komsomolunun XXXI qurultayında nitq söyləmişdir. |
| **1982-ci il 18 iyun** | Sov.İKP MK may (1982-ci il) plenumunun yekunları və respublika partiya təşkilatlarının plenumun qərarlarından və “1990-cı ilədək olan dövr üçün SSRİ-nin ərzaq proqramı və onu həyata keçirmək tədbirləri haqqında” L.İ.Brejnev yoldaşın məruzəsindən irəli gələn vəzifələri barəsində Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1982-ci il 12 iyul** | Sovet işçilərinin respublika müşavirəsində məruzə etmişdir. |
| **1982-ci il 17 iyul** | V.İ.Lenin adına sarayda təntənəli gecədə “Yüksək musiqi sənəti” mövzusunda nitq söyləmişdir. |
| **1982-ci il 22 iyul** | Sənaye və tikinti əməkçilərinin respublika müşavirəsində çıxış etmişdir. |
| **1982-ci il 28 avqust** | Respublika partiya və sovet fəallarının tələbə gənclərlə görüşündə nitq söyləmişdir. |

| | |
|---|---|
| **1982-ci il 22 oktyabr** | Azərbaycan SSR-ə Lenin ordeni təqdim edilməsinə həsr olunmuş şənliklərdə Sov.İKP MK-nın baş katibi, SSRİ Ali Soveti rəyasət heyətinin sədri L.İ.Brejnev yoldaşın çıxışında irəli sürülmüş müddəaları və göstərişləri həyata keçirmək sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə etmişdir. |
| **1982-ci il 25 oktyabr** | Azərbaycan sahə həkimlərinin I qurultayında nitq söyləmişdir. |
| **1982-1987-ci illər** | Sov.İKP MK Siyasi Bürosunun üzvü olmuşdur.<br><br>SSRİ Nazirlər Soveti Sədrinin I müavini vəzifəsində çalışmışdır. |
| **1983-cü il 17 iyun** | Əmək kollektivləri və müəssisələrin, idarələrin, təşkilatların idarə olunmasında onların rolunu yüksəltmək haqqında SSRİ qanununun layihəsi barəsində məruzə etmişdir. |
| **1984-cü il 20 fevral** | Bakı-Lenin seçki dairəsinin əmək kollektivlərinin V.İ.Lenin adına sarayda görüşündə nitq söyləmişdir. |
| **1984-cü il 13 mart** | Suriya paytaxtında Suriya Prezidenti H.Əsəd ilə görüşmüşdür. |

| | |
|---|---|
| **1985-ci il 22 aprel** | V.İ.Leninin anadan olmasının 115-ci ildönümü münasibətilə Moskvada təntənəli iclasda məruzə etmişdir. |
| **1985-ci il 15 avqust** | Pxenyanda Koreyanın azad edilməsinin 40 illiyi münasibətilə təntənəli iclasda nitq söyləmişdir. |
| **1986-cı il 30 iyun** | Sov.İKP MK-da Kommunist Partiyası Mərkəzi Komitəsinin katiblərinin, ittifaq respublikalarının Nazirlər Sovetləri sədrlərinin, müavinlərinin, peşə təhsili idarələrinin, bir sıra nazirliklərin və dövlət orqanları rəhbərlərinin müşavirəsində iştirak etmişdir. |
| **1986-cı il 2 iyul** | KXDR-in partiya-hökumət, KƏP Mərkəzi Komitəsinin katibi Kim Hvanqın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən məruzə etmişdir. |
| **1986-cı il 3 iyul** | Beşillik planın şüarı: sürət, keyfiyyət, qənaətcillik: Moskvada Böyük Kreml sarayında On birinci çağırış RSFSR Ali Sovetinin üçüncü sessiyasında deputatları və qonaqları qarşılayanlar sırasında olmuşdur. |
| **1987-ci il 8 yanvar** | Kremldə Polşa Xalq Respublikasının daxili ticarət və xidmət naziri E.Yuzvyakı qəbul etmişdir. |

| | |
|---|---|
| **1987-ci il 6 mart** | SSRİ-də rəsmi dostluq səfərində olan Efiopiya Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, Sosialist Efiopiyanın milli müdafiə naziri, general-leytenant Tesfay Qebre-Kidanı qəbul etmişdir. |
| **1987-ci il 15-18 mart** | Səfər etdiyi Volqoqrad əyalətinin zəhmətkeşləri ilə görüşmüş, partiyanın sosial siyasətinin həyata keçirilməsi, sovet adamlarının artan tələbatlarının daha çox təmin olunması yolları haqqında çıxış etmişdir. |
| **1987-ci il 15-16 aprel** | Moskvada Kreml sarayında ÜLKGİ-nin XX qurultayında iştirak etmişdir. |
| **1987-ci il 17 oktyabr** | İqtisadi və elmi-texniki əməkdaşlığa dair sovet-yuqoslav hökumətlərarası komitəsinin XXV iclasının keçirilməsi ilə əlaqədar Moskvada olan Yuqoslaviya Sosialist Federativ Respublikasının İttifaq icra şurasının sədr müavini Y.Zemlyariçi Kremldə qəbul etmişdir. |
| **1990-cı il** | Azərbaycan Respublikası Parlamentinə deputat seçilmişdir. |
| **1991-ci il 19 iyul** | Kommunist Partiyasının sıralarını tərk etmişdir. |
| **1991-1993-cü illər** | Naxçıvan Muxtar Respublikasının Ali |

| | |
|---|---|
| | Məclisinin sədri vəzifəsində çalışmışdır. |
| **1992-ci il 21 noyabr** | Yeni Azərbaycan Partiyasının (YAP) sədri seçilmişdir. |
| **1993-cü il 9 iyun** | Bakı şəhərinə gələrək fəal ictimai fəaliyyətə başlamışdır. |
| | ATƏM-in Minsk qrupunun sədri Mario Raffaellini qəbul etmişdir. |
| **1993-cü il 15 iyun** | Azərbaycan Respublikasının Ali Sovetinin sədri seçilmişdir. |
| **1993-cü il 25 iyun** | Türkiyənin Azərbaycandakı səfiri Altan Karamanoğlunu qəbul etmişdir. |
| **1993-cü il 6 iyul** | Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev "Ostankino" dövlətlərarası televiziya şirkətinə müsahibə vermişdir. |
| **1993-cü il 21 iyul** | Respublikamıza yeni təyin olunmuş Böyük Britaniyanın səfiri Tomas Yanqı və həmin ölkənin Azərbaycandakı müvəqqəti işlər vəkili Harlt Formstounu qəbul etmişdir. |
| **1993-cü il 8 avqust** | ABŞ-nin yəhudi icmasının "Yu Çey Ey" təşkilatı |

| | |
|---|---|
| | nümayəndələrini qəbul etmişdir. |
| **1993-cü il 13 avqust** | Azərbaycan Respublikasının Ali Sovetində respublikanın Biləsuvar, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılar ilə görüş keçirmişdir. |
| **1993-cü il 17 avqust** | Aparıcı neft şirkətlərinin və korporasiyalarının nümayəndələri ilə görüşdə çıxış etmişdir. |
| **1993-cü il 23 avqust** | Azərbaycan Milli Televiziyası ilə xalqa müraciət etmişdir. |
| **1993-cü il 10 sentyabr** | Mətbuat konfransında çıxış etmişdir. |
| **1993-cü il 16 sentyabr** | Bolqarıstanın ölkəmizdə işgüzar səfərdə olan nümayəndə heyətini qəbul etmişdir. |
| **1993-cü il 22 sentyabr** | Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə keçirilmiş görüşdə çıxış etmişdir. |
| **1993-cü il 29 sentyabr** | Azərbaycan Prezidentinin səlahiyyətini həyata keçirən Respublika Ali Sovetinin sədri kimi Milli Məclisin iclasında respublikada qanunsuz həbslər olub-olmaması haqqında daxili işlər nazirinin, milli təhlükəsizlik nazirinin və baş |

| | |
|---|---|
| | prokurorun birinci müavininin məlumatları dinlənildikdən və məsələnin müzakirəsindən sonra çıxış etmişdir. |
| **1993-cü il 3 oktyabrdan – 2003-cü il 15 oktyabra-dək** | Azərbaycan Respublikasının Prezidenti olmuşdur. |
| **2003-cü il 4 fevral** | MDB-nin üzvü olan ölkələrin Mədəni Əməkdaşlıq Şurasının 18-ci iclasının iştirakçılarını qəbul etmişdir. |
| **2003-cü il 5 fevral** | Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihəsinin həyata keçirilməsi ilə bağlı müşavirə keçirmişdir. |
| **2003-cü il 6 fevral** | Respublika Həmkarlar İttifaqları Konfederasiyasının II Qurultayında iştirak edən xarici təşkilatların nümayəndələrini qəbul etmişdir.<br><br>TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirləri Daimi Şurasının 19-cu toplantısının iştirakçılarını qəbul etmişdir. |

| | |
|---|---|
| | Dünya şöhrətli Azərbaycan bəstəkarı Qara Qarayevin xatirə gecəsində iştirak etmiş və nitq söyləmişdir. |
| **2003-cü il 10 fevral** | Qurban bayramı münasibəti ilə Azərbaycan xalqını təbrik etmişdir. |
| **2003-cü il 13 fevral** | İran İslam İnqilabının 24-cü ildönümü münasibəti ilə keçirilən mərasimdə nitq söyləmişdir. |
| **2003-cü il 18 fevral** | Rusiya Dövlət Dumasının nümayəndə heyətini qəbul etmişdir. |
| **2003-cü il 20 fevral** | Rusiya Təhlükəsizlik Şurasının katibi Vladimir Ruşaylonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| **2003-cü il 23 fevral** | Prezident Corc Buşun dəvətilə ABŞ-yə səfərə getmişdir.<br><br>Səfər müddətində Ağ Evdə Prezident Corc Buşla görüşmüş, “Şərq-Qərb enerji dəhlizi reallıqdır” mövzusunda beynəlxalq konfransda geniş nitq söyləmiş, ABŞ-nin vitse-prezidenti Riçard Çeyni ilə görüşmüş, ABŞ-nin Mərkəzi Kəşfiyyat Agentliyinin direktoru Corc Teneti qəbul etmiş, ATƏT-in Minsk qrupunun ABŞ tərəfindən həmsədri Rudolf Perina ilə görüşmüş, Vaşinqtonda |

| | |
|---|---|
| | jurnalistlər üçün mətbuat konfransı keçirmişdir. |
| **2003-cü il 12 dekabr** | ABŞ-nin Klivlend klinikasında vəfat etmiş, Bakı şəhərində Birinci Fəxri Xiyabanda dəfn edilmişdir. |
| **2022-ci il 29 sentyabr** | Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalamışdır. |

## 1.2. TƏLTİFLƏR

### a) Ulu Öndər Heydər Əliyevin təltif olunduğu SSRİ-nin orden və medalları

| | |
|---|---|
| **1945-ci il 9 may** | "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı |
| **1945-ci il 6 iyun** | "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı |
| **1948-ci il 22 fevral** | "Sovet Ordusunun və Donanmasının 30 illiyi" yubiley medalı |
| **1949-cu il 27 may** | "Əmək rəşadətinə görə" medalı |
| **1954-cü il 5 noyabr** | "Döyüş xidmətlərinə görə" medalı |
| **1957-ci il 18 dekabr** | "SSRİ Silahlı Qüvvələrinin 40 illiyi" yubiley medalı |
| **1959-cu il 2 dekabr** | II dərəcəli "Nümunəvi xidmətə görə" medalı |
| **1960-cı il 15 aprel** | "DTK-nın fəxri əməkdaşı" nişanı |
| **1962-ci il 26 may** | "Qızıl Ulduz" ordeni |
| **1964-cü il 9 yanvar** | Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı |
| **1964-cü il 4 dekabr** | I dərəcəli "Nümunəvi xidmətə görə" medalı |
| **1965-ci il 7 may** | "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi" yubiley medalı |
| **1967-ci il 15 dekabr** | "ÜFK-DTK-nın 50 illiyi" nişanı |

| | |
|---|---|
| **1967-ci il 26 dekabr** | “SSRİ Silahlı Qüvvələrinin 50 illiyi” yubiley medalı |
| **1968-ci il 28 may** | “SSRİ Sərhəd Qoşunlarının 50 illiyi” yubiley nişanı |
| **1970-ci il 15 aprel** | “V.İ.Leninin anadan olmasının 100 illiyi şərəfinə rəşadətli əməyə görə” yubiley medalı |
| **1971-ci il 25 avqust** | “Lenin” ordeni |
| **1973-cü il 8 may** | “Lenin” ordeni |
| **1975-ci il 25 aprel** | “1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 30 illiyi” yubiley medalı |
| **1976-cı il 27 dekabr** | “Lenin” ordeni |
| **1978-ci il 28 yanvar** | “SSRİ Silahlı Qüvvələrinin 60 illiyi” yubiley medalı |
| **1979-cu il 24 avqust** | Lenin ordeni və “Oraq və çəkic” qızıl medalı |
| **1982-ci il 10 mart** | “Oktyabr İnqilabı” ordeni |
| **1982-ci il 28 aprel** | Sov İKP MK-nın “Politiçeskoye obrazovaniye” jurnalı redaksiya heyətinin Fəxri Fərmanı |
| **1982-ci il 17 may** | “Kiyevin 1500 illik xatirəsinə görə” medalı |
| **1982-ci il 5 oktyabr** | “Georgi Dimitrovun anadan olmasının 100 illiyi” yubiley medalı |
| **1983-cü il 7 may** | “Lenin” ordeni və “Oraq və çəkic” qızıl medalı |
| **1983-cü il 9 may** | “Georgi Dimitrov” ordeni |

| | |
|---|---|
| **1984-cü il 8 iyun** | “Komsomolsk-Amurun 50 illik” yubiley nişanı |
| **1984-cü il 12 iyul** | ÜİLKGİ MK-nın “60 il V.İ.Leninin adı ilə” fəxri nişanı |
| **1984-cü il** | “Qırğızıstan SSR-in və Qırğızıstan Kommunist Partiyasının 60 illiyi” xatirə medalı |
| **1985-ci il 24 yanvar** | “25 il Patris Lumumba adına Xalqlar Dostluğu Universiteti” medalı |
| **1985-ci il 12 aprel** | “1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 40 illiyi” yubiley medalı |
| **1985-ci il 19 aprel** | “I dərəcəli Vətən müharibəsi” ordeni |
| **1988-ci il 18 yanvar** | “SSRİ Silahlı Qüvvələrinin 70 illiyi” yubiley medalı |

## b) Ulu Öndər Heydər Əliyevin müstəqillik illərində aldığı orden və medallar

| | |
|---|---|
| **1997-ci il 24 mart** | Ukraynanın ali mükafatı olan “Yaroslav Mudrı” ordeni |
| **1997-ci il 5 may** | Türkiyənin yüksək mükafatı “Dövlət nişanı” |
| **1998-ci il 14 dekabr** | Prezident sarayında Beynəlxalq Kadr Akademiyasının “Elm və təhsilin inkişafına görə” beynəlxalq ordeni |
| **2000-ci il 23 mart** | Rusiya Rəssamlıq Akademiyasının “Ləyaqət” qızıl medalı |
| **2001-ci il 28 mart** | Beynəlxalq Mühəndislik Akademiyasının “Böyük qızıl medalı” |
| **2001-ci il 18 may** | Ukraynanın “Qızıl tale” Beynəlxalq Açıq Məşhurluq Reytinqinin “Qloriya Populi” qızıl ulduzu |
| **2001-ci il 28 may** | Rus pravoslav kilsəsinin birinci dərəcəli “Müqəddəs Mömin Moskva knyazı Daniil” ordeni |
| **2001-ci il 29 sentyabr** | Gürcüstanın ali mükafatı “Qızıl runo” ordeni |
| **2002-ci il 3 may** | Avropa Güləş Federasiyasının “Qızıl boyunbağı” fərqlənmə nişanı |
| **2002-ci il 27 iyun** | İhsan Doğramacı Fondunun “Beynəlxalq qızıl sülh” medalı |
| **2003-cü il 7 may** | Fransa Respublikasının “Fəxri Legionun Böyük Xaçı” ordeni |
| **2003-cü il 10 may** | Rusiyanın yüksək mükafatı – “Müqəddəs apostol Andrey Pervozvannı” ordeni |

| | |
|---|---|
| **2003-cü il 12 may** | Uşaq Fondları Beynəlxalq Assosiasiyasının yüksək mükafatı "Lev Tolstoy adına beynəlxalq qızıl medalı" |
| **2003-cü il 27 iyun** | Ukraynanın mədəniyyət ictimaiyyətinin "Şərəf" ordeni |
| **2004-cü il 23 yanvar** | Fransanın "Fəxri Legionun Böyük Xaçı" ordeni |

## c) Ulu Öndər Heydər Əliyevin təltif olunduğu fəxri elmi adlar

| | |
|---|---|
| **1994-cü il 9 fevral** | Türkiyənin Ankara şəhərindəki “Hacəttəpə Universitetinin Fəxri doktoru” diplomu |
| **1996-cı il 9 mart** | Gürcüstanın “Tbilisi Dövlət Universitetinin Fəxri doktoru” diplomu |
| **1997-ci il 29 mart** | Rusiyanın “Moskva Dövlət Hüquq Akademiyasının Fəxri doktoru” diplomu |
| **1997-ci il 7 may** | Türkiyənin İzmir şəhərindəki “Doqquz Eylül Universitetinin Fəxri doktoru” diplomu |
| **1997-ci il 8 may** | Türkiyənin İstanbul şəhərindəki “Fatih Universitetinin Fəxri doktoru” diplomu |
| **1997-ci il 11 iyun** | Qazaxıstanın “əl-Fərabi adına Qazax Milli Dövlət Universitetinin Fəxri doktoru” diplomu |
| **1997-ci il 19 iyun** | Özbəkistanın “Mirzə Uluqbəy adına Daşkənd Dövlət Universitetinin Fəxri doktoru” diplomu |
| **1998-ci il 24 mart** | Türkiyənin İzmir şəhərindəki “Ege Universitetinin Fəxri doktor – “Honorius Kausus” diplomu |
| **1998-ci il 1 may** | Türkiyənin “Mustafa Kamal Atatürk adına Ərzurum Universitetinin Fəxri doktoru” diplomu |
| **1999-cu il 23 fevral** | Türkiyənin İsgəndərun şəhərindəki “Mustafa Kamal adına Universitetinin ictimai elmlər üzrə Fəxri doktoru” adı |

| | |
|---|---|
| **1999-cu il 28 noyabr** | Türkiyənin İsparta şəhərindəki “Süleyman Dəmirəl adına Universitetinin Fəxri doktoru” diplomu |
| **2000-ci il 11 fevral** | “Bakı Dövlət Universitetinin Fəxri doktoru” diplomu |
| **2000-ci il 31 may** | Türkiyənin “Osmanqazi Universitetinin Fəxri doktoru” adı |
| **2001-ci il 16 mart** | Türkiyənin “Ankara Universitetinin Fəxri doktoru” diplomu |
| **2002-ci il 10 yanvar** | Türkiyənin Bursa şəhərindəki “Uludağ Universitetinin Fəxri doktoru” adı |
| **2002-ci il 25 yanvar** | Rusiyanın “Moskva Dövlət Universitetinin Fəxri professoru” diplomu |
| **2002-ci il 11 may** | Beynəlxalq Elmlər Akademiyasının “BEA-nın Fəxri akademiki” diplomu |
| **2002-ci il 28 iyun** | Türkiyənin Qars şəhərindəki “Qafqaz Universitetinin Fəxri doktoru” diplomu |
| **2002-ci il 8 iyul** | “Beynəlxalq Üzümçülük və Şərabçılıq Akademiyasının fəxri üzvü” adı |
| **2002-ci il 24 sentyabr** | Rusiyanın “Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) Fəxri doktoru” diplomu |
| **2003-cü il 12 mart** | Türkiyənin “Kırıkkale Universitetinin Fəxri doktoru” adı |
| **2003-cü il 24 mart** | “Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru” və həqiqi üzvü |

| | |
|---|---|
| | "Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyası" tərəfindən milli və qlobal təhlükəsizlik problemlərinin həllinə görkəmli töhfəsinə görə qızıl medal təqdim edilməklə "Yuri Andropov adına mükafat" |
| **2003-cü il 12 aprel** | ABŞ-nin Kaliforniya ştatının San-Fransisko şəhərindəki "Linkoln Universitetinin Fəxri doktoru" diplomu |
| **2003-cü il 27 iyun** | "Ukrayna Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəxri doktoru" diplomu |

## ç) Ulu Öndər Heydər Əliyevin təltif olunduğu fəxri adlar, mükafatlar

| | |
|---|---|
| **1997-ci il 25 mart** | Ukraynanın "Kiyev şəhərinin fəxri qonağı diplomu" və "Ukrayna paytaxtının rəmzi açarı" |
| **1997-ci il 6 may** | Türkiyənin "Türkiyə-Azərbaycan Dostluğu Vəqfinin fəxri sədri" diplomu |
| **1997-ci il 2 avqust** | ABŞ-nin "Texas ştatının fəxri vətəndaşı" adı |
| **1997-ci il 3 avqust** | ABŞ-nin "Hyuston-Bakı Assosiasiyasının fəxri üzvü" adı |
| **1997-ci il 4 avqust** | ABŞ-nin Amerika-Avrasiya Sənaye-Ticarət Palatasının "1997-ci ilin adamı" mükafatı |
| **1997-ci il 2 noyabr** | Milli Olimpiya Komitələri Assosiasiyasının "Ləyaqət" mükafatı |
| **1997-ci il 28 noyabr** | Türkiyənin Ankara İş Qadınları Dərnəyinin (ANİKAD) "1997-ci ilin görkəmli dövlət adamı" mükafatı |
| **1998-ci il 27 yanvar** | Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin (TURKSAB) 1997-ci il üçün "Türk dünyasına xidmət" mükafatı |
| **1998-ci il 10 fevral** | Türkiyənin Kırpınar yağlı güləş yarışlarının "Baş Ağası" mükafatı |
| **1998-ci il 13 fevral** | Türkiyənin "Nərgiz TV" /NTV/ kanalının 1997-ci il üçün "Dünyada ilin adamı" mükafatı |
| **1998-ci il 14 fevral** | Türkiyənin Türk Sənayeçi və İş Adamları Vəqfinin (TÜSİAV) "İlin dövlət adamı" mükafatı |

| | |
|---|---|
| | Türkiyənin Qars şəhər bələdiyyəsinin “1997-ci ilin insan haqları” mükafatı |
| **1998-ci il 4 may** | Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü |
| **1998-ci il 13 may** | Rusiyanın Saratov vilayətindəki “Yurd” Azərbaycan cəmiyyətinin fəxri üzvü |
| **1998-ci il 23 may** | Türkiyə Qəzetəçilər və Yazarlar Vəqfinin “Beynəlxalq türk dünyası qohum millətlərin yaxınlaşması mükafatı” |
| **1998-ci il 5 sentyabr** | Türkiyənin Bayburd diyarının “Dədə Qorqud” mükafatı |
| | Türkiyənin İzmir şəhərinin Karşıyaka bələdiyyəsinin “İnsan haqları” mükafatı |
| | Türkiyənin İpək Yolu Vəqfinin “İpək Yolu Xidmət Mükafatı” və Vəqfin fəxri üzvü diplomu |
| **1998-ci il noyabr** | Türkiyənin siyasi və iqtisadi mövzuları əhatə edən nüfuzlu və məşhur “Siyasət" jurnalının ənənəvi “İlin şərəf mükafatı” |
| **1998-ci il 12 noyabr** | Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin fəxri sədri |
| **1998-ci il 27 noyabr** | Türkiyənin Ankara İş Qadınları Dərnəyinin “1998-ci ilin dövlət adamı” mükafatı |

| | |
|---|---|
| **1999-cu il 19 yanvar** | Beynəlxalq Bioqrafiya Mərkəzinin (İngiltərə, Kembric) Direktorlar Şurası tərəfindən "Dünyanın XX əsrdə görkəmli xadimi" adı |
| **1999-cu il fevral** | Türkiyənin İpək Yolu Vəqfinin 1998-ci il "Böyük lider" mükafatı və vəqfin fəxri sədri |
| **1999-cu il 6 fevral** | Türk Sənayeçi və İş Adamları Vəqfinin (TÜSİAV) "İlin dövlət adamı" mükafatı |
| **1999-cu il 7 iyul** | Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi tərəfindən "Günümüzün ən dözümlü adamı" |
| **1999-cu il 1 noyabr** | Türkiyənin "Atatürk Beynəlxalq Sülh Mükafatı" |
| **2000-ci il mart** | Türkiyənin İpək Yolu Vəqfinin "1999-cu ilin dövlət adamı" mükafatı |
| **2000-ci il 13 iyun** | Türkiyə Qəzetəçilər və Yazarlar Vəqfinin "Türk dünyası qardaşlıq və dostluq mükafatı" |
| **2000-ci il 17 iyun** | Rusiyanın "İ.Y.Yakovlev adına Ümum-çuvaşiya Milli Mükafatı" |
| **2000-ci il 18 dekabr** | Rusiya Kinematoqrafiya Sənəti Akademiyasının "Nika" mükafatı |
| **2001-ci il avqust** | Türkiyənin İpək Yolu Vəqfinin "2001-ci ilin dövlət adamı" mükafatı |
| **2001-ci il 16 sentyabr** | Türkiyənin Ankara İş Qadınları Dərnəyinin "2001-ci ilin müdrik dövlət adamı" mükafatı |
| **2001-ci il 22 oktyabr** | Beynəlxalq Həvəskar Boks Assosiasiyasının fəxri mükafatı |

| | |
|---|---|
| **2002-ci il 22 mart** | “Ruh” Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi “Jurnalistlərin dostu” mükafatı |
| **2002-ci il  9 iyun** | “Rusiyanın Milli Şöhrəti Mərkəzi” İctimai Fondunun “Sivilizasiyaların dialoqu” Beynəlxalq Andrey Pervozvannı mükafatı |
| **2002-ci il 27 iyun** | Türkiyənin Ankara İş Qadınları Dərnəyinin “2002-ci ilin dövlət adamı” mükafatı |
| | Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin (TÜRKSAV) “Türk dünyasının 2001-ci il xüsusi mükafatı” |
| **2002-ci il 2  avqust** | Azərbaycan kinosunun 104 illiyinə həsr olunmuş 4-cü Avrasiya teleforumunun mükafatı və diplomu |
| **2002-ci il 23 avqust** | Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin 2002-ci ilin “Baş müəllim Atatürk" mükafatı |
| **2002-ci il 10 sentyabr** | Ankara Qadınları Dərnəyinin “2001-ci ilin müdrik dövlət adamı” mükafatı |
| | “Türk Sənayeçi və İş Adamları Vəqfinin (TÜSİAV) fəxri sədri” plaketi |
| **2002-ci il 15 oktyabr** | Türkiyənin “Samanyolu” televiziya kanalının “Medianın dostu” mükafatı |
| **2003-cü il 11 yanvar** | Azərbaycanın “ANS şirkətlər Qrupu”nun və Çingiz Mustafayev adına Fondun təsis etdiyi “2002-ci ilin adamı” mükafatı və diplomu |

| | |
|---|---|
| **2003-cü il 17 mart** | Türkiyədə nəşr olunan nüfuzlu və məşhur “Siyasət" jurnalının təsis etdiyi “İlin dövlət adamı mükafatı” |
| **2003-cü il 29 mart** | Türkiyənin İpək Yolu Vəqfinin “2002-ci ilin siyasət adamı” mükafatı |
| **2003-cü il 30 aprel** | Görkəmli şairin 60 illiyi münasibətilə “Qorqud” Assosiasiyası tərəfindən təsis olunmuş “Məmməd Araz mükafatı” |
| **2003-cü il 2 may** | Türkiyənin “Zaman” qəzetinin təsis etdiyi “Avrasiyada sülh və dialoq” beynəlxalq mükafatı |
| **2004-cü il 29 yanvar** | Azərbaycanın “ANS şirkətlər Qrupu”nun və Çingiz Mustafayev adına Fondun təsis etdiyi “2003-cü ilin adamı” mükafatı |

## 1.3. DÜNYA LİDERLƏRİ, GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR HEYDƏR ƏLİYEV HAQQINDA

“Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir”.

***

“Heydər Əliyev nəinki Azərbaycan hüdudları çərçivəsində, dünya miqyasında böyük hörmət qazanmış və müstəsna xidmətləri olmuş şəxsiyyətdir. Heydər Əliyev həyatda nə əldə edibsə öz biliyi, bacarığı, zəkası və fədakarlığı nəticəsində əldə edib və bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət edib. Məhz onun rəhbərliyi ilə Azərbaycan 1970-ci illərdə ayağa qalxdı, ən geridə qalmış müttəfiq sovet respublikasından ən qabaqcıl respublikaya ucaldı. Onun rəhbərliyi ilə, bax, burada - Naxçıvanda naxçıvanlılar erməni işğalının qabağını ala bildilər. Çünki mənfur düşmənin niyyətləri də, məhz siyasəti də o idi ki, Naxçıvanı da işğal etsinlər”.

***

“Ulu Öndər həmişə olduğu kimi, uzaqgörənlik göstərərək məhz gənclərə üz tutdu, onları dəvət etdi, onlara öz tövsiyələrini verdi və gəncləri gələcək inkişaf üçün təşkilatlandırmaq və hazırlamaq üçün əməli-praktik addımlar atıldı. Əgər biz bu kiçik bir tarixi ekskursa nəzər salsaq görərik ki, Heydər Əliyev nə qədər haqlı idi. Çünki bu gün cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayır. Gənclərin təşəbbüsləri, onların əməyi bu gün hər yerdə görünməkdədir və əlbəttə ki, yeni nəslin vətənpərvərlik ruhunda, dövlətə sədaqət əsasında yetişdirilməsi Heydər Əliyevin xidmətləri arasında önəmli yer tutur.”

***

“Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi. O, hətta özü üçün ən çətin dövrlərdə, artıq son illərdə fiziki sağlamlığı əvvəlki kimi olmadığı dövrdə də hər zaman hər birimizə nümunə göstərirdi. Hər birimiz, o cümlədən mən onun sağlığında da və yoxluğunda da onun kriteriyalarına uyğun hərəkət etməyə

çalışırıq. Bu gün bizi qabağa aparan məhz budur - onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır”.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı**

“Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası onun müqəddəs arzusu reallaşıb – bizim 30 ilə yaxın işğal altında olmuş torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilib. Dahi lider Heydər Əliyevin unudulmaz xatirəsini ehtiramla yad edirəm. Ölkəmizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram”.

***

“Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır”.

***

“2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir”.

**Mehriban ƏLİYEVA**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,**
**Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti,**
**İSESKO-nun xoşməramlı səfiri**

“Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur”.

**Rəcəb Tayyib ƏRDOĞAN**
**Türkiyə Respublikasının Prezidenti**

“Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi həyatdan getmişdir. Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir. Onun vəfatı Müstəqil Dövlətlər Birliyi, bütün beynəlxalq birlik üçün əvəzsiz itkidir”.

**Vladimir PUTİN**
**Rusiya Federasiyasının Prezidenti**

“Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır”.

**Corc BUŞ**
**Amerika Birləşmiş Ştatlarının sabiq Prezidenti**

“Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim”.

**Jak ŞİRAK**
**Fransa Respublikasının sabiq Prezidenti**

“Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun

Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir".

**Toni BLEYER**
**Böyük Britaniyanın keçmiş Baş naziri**

"Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür".

**Nursultan NAZARBAYEV**
**Qazaxıstan Respublikasının sabiq Prezidenti**

"Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır".

**Xu SZİNTAO**
**Çin Xalq Respublikasının sabiq Sədri**

"Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm.

Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.

Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir".

**Əhməd Necdət SEZƏR**
**Türkiyə Respublikasının sabiq Prezidenti**

“Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram”.

**Kraliça II ELİZABET**

“Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir. Onun İran İslam Respublikasına çox səmərəli səfəri ölkələrimizin əlaqələrində dönüş nöqtəsi olmuşdur”.

**Seyid Məhəmməd XATƏMİ**
**İran İslam Respublikasının sabiq Prezidenti**

“Hörmətli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin adı və nüfuzu Azərbaycan Respublikasının beynəlxalq birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlı olacaqdır. Biz müasir beynəlxalq gerçəklik şəraitində Bolqarıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük şəxsi töhfəsini yüksək qiymətləndiririk”.

**Georgi PIRVANOV**
**Bolqarıstan Respublikasının sabiq Prezidenti**

“Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir”.

**İslam KƏRİMOV**
**Özbəkistan Respublikasının sabiq Prezidenti**

"Moldova Respublikasında Heydər Əliyevi həmişə böyük vətənpərvər kimi, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, Avropada və bütün dünyada demokratiya idealları uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər".

**Vladimir VORONİN**
**Moldova Respublikasının sabiq Prezidenti**

"Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır".

**Gerhard ŞRÖDER**
**Almaniya Federativ Respublikasının sabiq Federal Kansleri**

"Onun adı doğma torpaqla qırılmaz surətdə bağlıdır. Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh axtarışı Heydər Əlirza oğluna bütün dünyada yüksək nüfuz və səmimi hörmət qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaqdır".

**Emoməli RƏHMONOV**
**Tacikistan Respublikasının Prezidenti**

"Qırğızıstanda Heydər Əlirza oğlunu müstəqil Azərbaycanın təşəkkülünə və inkişafına misilsiz töhfə vermiş görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi kimi yaxşı tanıyırdılar.

Onun rəhbərliyi ilə Azərbaycan Respublikası müstəqil inkişaf yolunda böyük uğurlar qazanmış, dünya birliyinin tanınmış və hörmətli üzvü olmuşdur. Heydər Əlirza oğlu özünün bütün istedad və müdrikliyini, Vətənə məhəbbətini, əməksevərliyini və fədakarlığını Azərbaycanın tərəqqisi işinə həsr etmişdir".

**Əsgər AKAYEV**
**Qırğızıstan Respublikasının sabiq Prezidenti**

"Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm".

**II İohan Pavel**
**keçmiş Roma Papası**

"Rusiya üçün Heydər Əlirza oğlu Əliyev tarixə XXI əsrdə hərtərəfli Azərbaycan-Rusiya münasibətlərinin, iki dövlətin strateji tərəfdaşlığının möhkəmlənməsinin əqidəli və fəal tərəfdarı kimi daxil olmuşdur".

**Vyaçeslav TRUBNİKOV**
**Rusiya Federasiyası xarici işlər nazirinin keçmiş birinci müavini**

"Dağıstanlılar Heydər Əlirza oğlunu yaxşı tanıyırdılar və onun Dağıstana xoş münasibətini həmişə xatırlayacaqlar, çünki onun bu münasibəti sayəsində xalqlarımız arasında dostluq və mehriban qonşuluq ənənələri yaranmışdır və uzun illərdən bəri mövcuddur. Onun adı xatirimizdə həmişəlik qalacaqdır".

**Məhəmmədəli MƏHƏMMƏDOV**
**Dağıstan Respublikası Dövlət Şurasının sabiq Sədri**

"Müstəqil Dövlətlər Birliyi ölkələrinin siyasi həyatında Heydər Əlirza oğlunun oynadığı rolu lazımınca qiymətləndirmək çətindir. Müdrik siyasətçi olaraq o, ən mürəkkəb vəziyyətlərdə konstruktiv qərarlar tapmağı bacarırdı. Təkcə Azərbaycan deyil, həm də postsovet məkanının bütün ölkələri nüfuzlu dövlət liderini itirdilər".

**Mintimer ŞAYMİYEV**
**Tatarıstan Respublikasının sabiq Prezidenti**

"Heydər Əlirza oğlu böyük siyasətçi, dahi dövlət rəhbəri və vətənpərvər, gözəl, istedadlı insan kimi məşhur idi. Sovet dövlətinin, sonralar MDB-nin və Azərbaycan Respublikasının tarixinin bir çox parlaq və əhəmiyyətli səhifələri onun adı ilə bağlıdır".

**Murtaza RƏHİMOV**
**Başqırdıstan Respublikasının sabiq Prezidenti**

“Bütün postsovet məkanında müasir siyasətçilərin bütöv bir nəslinin yetişdirilməsində Heydər Əlirza oğlunun xidməti misilsizdir. Dünya səviyyəli görkəmli dövlət xadimi kimi Heydər Əlirza oğlu ilə şəxsi görüşlərimlə bağlı xatirələri qəlbimdə həmişəlik saxlayacağam”.

**Kirsan İLYUMJİNOV**
**Kalmıkiya Respublikasının sabiq Prezidenti,**
**FİDE-nin Prezidenti**

“Azərbaycan ilə Türkiyə arasında dərin kökləri olan tarixi və mədəni bağlar vardır. Hörmətli Əliyev tarixdən gələn bu bağların yenidən canlandırılması və Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin inkişafı üçün fövqəladə səylər göstərmişdir”.

**Bülənd ECEVİT**
**Demokratik Sol Partiyasının keçmiş sədri**

“Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır”.

**Çingiz AYTMATOV**
**Qırğızıstan Xalq yazıçısı**

“Heydər Əliyev böyük şəxsiyyətdir. O, mənim dostum, qardaşımdır. Onun yeri həmişə ürəyimin başındadır”.

**Butros Butros-Qali**
**BMT-nin sabiq Baş katibi**

“Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyinin lider dövlətləri ilə müqayisədə həddindən çox nailiyyətlər əldə edibdir. O, həqiqətən yeni Azərbaycan dövlətinin qurucusudur”.

**Timm EQQAR**
**Böyük Britaniyanın sabiq energetika naziri**

“Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram”.

**Nikolay BAYBAKOV**
**keçmiş SSRİ Dövlət Plan Komitəsinin Sədri**

“Mərhum Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan bu gün xarici siyasətində etibar və sabitlik amili kimi çıxış edən, iqtisadi inkişaf və sosial rifah yolunda möhkəm addımlarla irəliləyən, beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi etibarlı mövqeyini gündən-günə təmin etməkdə olan ölkədir. Azərbaycanın bu gün yürütdüyü uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarı olan Heydər Əliyevi itirməyimiz tarixi və mədəni tellərlə bir-birinə bağlanmış olan xalqlarımızı dərindən kədərləndirmişdir”.

**Abdullah GÜL**
**Türkiyə Respublikasının sabiq Prezidenti**

## 1.4. ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜDRİK KƏLAMLARI

Azərbaycanda güclü təhsil sistemi, məktəblər, çox güclü ali təhsil ocaqları yaranıbdır. Məhz onların fəaliyyəti, böyük müəllim ordusunun fəaliyyəti nəticəsində, ali məktəblərin böyük professor-müəllim heyətinin fəaliyyəti nəticəsində indi Azərbaycanın çox böyük elmi-texniki potensialı, yüksək səviyyəli təhsil almış vətəndaşları var.

♦♦♦♦♦

Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə, savada malik olan xalqdır. Bunlar hamısı uzun illər – keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticələri, Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir.

♦♦♦♦♦

Azərbaycan müəlliminə cəmiyyətimizin ən şərəfli adını – müəllim adını bundan sonra da şərəflə daşımağı arzu edirəm.

♦♦♦♦♦

Yol - iqtisadiyyat, mədəniyyət, bir sözlə həyat deməkdir.

♦♦♦♦♦

Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz.

♦♦♦♦♦

Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın.

♦♦♦♦♦

Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

♦♦♦♦♦

Tarix həmişə hər şeyi öz yerinə qoyur.

♦♦♦♦♦

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

♦♦♦♦♦

Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

♦♦♦♦♦

Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır.

♦♦♦♦♦

Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.

♦♦♦♦♦

Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini, özünə məxsus olan yerini tapmalıdır.

♦♦♦♦♦

Heç kim əbədi qalib ola bilməz.

♦♦♦♦♦

Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz.

♦♦♦♦♦

Kim ki, biliyindən, bacarığından artıq iddialar edir, o, həmişə məğlub olur.

♦♦♦♦♦

Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.

♦♦♦♦♦

İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir.

♦♦♦♦♦

Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır.

♦♦♦♦♦

Heç bir ölkəni özünə düşmən hesab etməməlisən.

♦♦♦♦♦

Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir.

♦♦♦♦♦

Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

♦♦♦♦♦

İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

♦♦♦♦♦

Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.

♦♦♦♦♦

İlk işə başlayan şəxslərin üzərinə həmişə çox böyük, şərəfli vəzifələr düşür.

♦♦♦♦♦

Öz ana dilini bilməyən adamlar şikəst adamlardır.

♦♦♦♦♦

Ağıl olan yerdə zora ehtiyac yoxdur.

♦♦♦♦♦

Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.

♦♦♦♦♦

Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.

♦♦♦♦♦

Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur.

♦♦♦♦♦

Həqiqəti gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz.

♦♦♦♦♦

Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır.

♦♦♦♦♦

Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir.

♦♦♦♦♦

Dünya, ümumiyyətlə, quruculuqla, tikib-yaratmaqla yaşayıb, inkişaf edib.

♦♦♦♦♦

Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.

♦♦♦♦♦

Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.

♦♦♦♦♦

Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.

♦♦♦♦♦

Müstəqillik yolu qədər çətin yol yoxdur.

♦♦♦♦♦

Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür.

♦♦♦♦♦

Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır.

♦♦♦♦♦

Xalq gərək daim öz kökünü xatırlasın.

♦♦♦♦♦

Tariximizin hər səhifəsi bizim üçün əzizdir.

♦♦♦♦♦

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.

♦♦♦♦♦

Tariximiz bizim üçün dərs olmalıdır.

♦♦♦♦♦

Tarix heç nəyi silmir.

♦♦♦♦♦

Kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Amma ədalətsizliyə qarşı daha böyük bir cinayət törətmək, ədalətsizlikdən də betərdir.

♦♦♦♦♦

Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!

♦♦♦♦♦

Qurani-şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yolları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir.

♦♦♦♦♦

Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

♦♦♦♦♦

Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun.

♦♦♦♦♦

İnsan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır.

♦♦♦♦♦

Hamı bir boyda ola bilməz, hamının eyni fikri ola bilməz. Fikir müxtəlifliyi təbii hadisədir.

♦♦♦♦♦

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

♦♦♦♦♦

Dil böyük bir aləmdir.

♦♦♦♦♦

Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.

♦♦♦♦♦

Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.

♦♦♦♦♦

Xalq azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.

♦♦♦♦♦

Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar.

♦♦♦♦♦

Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.

♦♦♦♦♦

Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.

♦♦♦♦♦

Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir!

♦♦♦♦♦

Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır.

♦♦♦♦♦

Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı, artist - bunlar fitri istedada malik olan nadir adamlardır.

♦♦♦♦♦

Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.

♦♦♦♦♦

Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır.

♦♦♦♦♦

Gərək nəbzin Vətənin nəbzi ilə vursun.

♦♦♦♦♦

Tənqid həmişə işə kömək edir.

♦♦♦♦♦

Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!

# II HİSSƏ

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN KİTAB ŞƏKLİNDƏ NƏŞR EDİLMİŞ ƏSƏRLƏRİ

## 2.1. ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN SOVETLƏR BİRLİYİ DÖVRÜNDƏ NƏŞR EDİLMİŞ ƏSƏRLƏRİ (1969-1990-cı illər)

### a) Azərbaycan dilində

**1970**

1. Sov. İKP MK-nın iyul (1970-ci il) plenumu və Azərbaycan SSR-də kənd təsərrüfatını daha da inkişaf etdirmək vəzifələri [Mətn] / Heydər Əliyev. - Bakı: Azərnəşr, 1970. - 68 s.

2. Sovet Azərbaycanı 50 ildə [Mətn] / Heydər Əliyev. - Bakı: Bilik Cəmiyyəti, 1970. - 82 s.

**1974**

3. Respublikada tərəvəz, kartof və meyvə istehsalının və tədarükünün daha da artırılmasını təmin etməli [Mətn] / Heydər Əliyev: Azərbaycan KP MK-nın plenumunda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev yoldaşın məruzəsi: 20 noyabr 1973-cü il. - Bakı: Azərnəşr, 1974. - 46 s.

4. Sov. İKP MK-nın dekabr (1972-ci il) plenumunun yekunları və respublika partiya təşkilatının vəzifələri haqqında [Mətn] / Heydər Əliyev: Azərbaycan KP MK-nın plenumunda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyev yoldaşın məruzəsi: 20 fevral 1973-cü il. - Bakı: Azərnəşr, 1974. - 48 s.

**1975**

5. Azərbaycan SSR sovet xalqlarının qardaşlıq ailəsində [Mətn] / Heydər Əliyev: Azərbaycan Kommunist Partiyası MK-nın və Azərbaycan SSR Ali Sovetinin Azərbaycan SSR-in və Azərbaycan Kommunist Partiyasının 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda məruzə: 2 oktyabr 1970-ci il. - Bakı: Azərnəşr, 1975. - 30 s.

6. Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında [Mətn] / Heydər Əliyev: Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin qərarının yerinə yetirilməsi sahəsində respublika partiya təşkilatının vəzifələri barəsində 1975-ci il oktyabrın 31-də Azərbaycan KP MK plenumunda Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaşın məruzəsi: Azərbaycan KP MK-nın plenumunun qərarı.- Bakı: Azərnəşr, 1975.-99 s.

7. Sov.İKP XXIV qurultayının qərarları ilə əlaqədar olaraq məhsulun keyfiyyətini səfərbərliyə almaq sahəsində Respublika partiya təşkilatlarının vəzifələri haqqında [Mətn] / Heydər Əliyev: Azərbaycan KP MK-nın 1974-cü il

dekabrın 8-9-da keçirilmiş plenumunun materialları /Azərbaycan KP MK Plenum (1974, dekabr).- Bakı: Azərnəşr, 1975.- 60 s.

8. Sov. İKP XXIV qurultayının tələbləri ilə əlaqədar olaraq kadrların seçilməsini, yerləşdirilməsini və tərbiyə edilməsini daha da yaxşılaşdırmaq sahəsində Azərbaycan partiya təşkilatının vəzifələri haqqında [Mətn] / Heydər Əliyev: 1975-ci il iyulun 30-da Azərbaycan KP MK plenumunda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyev yoldaşın məruzəsi; Azərbaycan KP MK plenumunun qərarı. - Bakı: Azərnəşr, 1975. - 88 s.

**1976**

9. Azərbaycan Kommunist Partiyasının XXIX qurultayına Azərbaycan KP Mərkəzi Komitəsinin hesabat məruzəsi [Mətn] / Heydər Əliyev: 28 yanvar 1976-cı il. - Bakı: Azərnəşr, 1976. - 109 s.

10. "1976-1980-ci illərdə respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində" Sov. İKP MK-nın qərarını yerinə yetirmək sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında [Mətn] / Heydər Əliyev: Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyev yoldaşın məruzəsi: Azərbaycan KP MK plenumunun qərarı. - Bakı: Azərnəşr, 1976. - 64 s.

11. Sov. İKP XXV Qurultayının qərarları ilə əlaqədar olaraq əsaslı tikintini yaxşılaşdırmaq sahəsində Respublika partiya təşkilatının vəzifələri haqqında [Mətn] / Heydər Əliyev: Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyev yoldaşın məruzəsi: Azərbaycan KP MK plenumunun qərarı. - Bakı: Azərnəşr, 1976. - 74 s.

12. Sov. İKP MK oktyabr (1976-cı il) plenumunun qərarları və MK-nın Baş katibi L.İ.Brejnev yoldaşın nitqi ilə əlaqədar olaraq Respublika partiya təşkilatının vəzifələri haqqında [Mətn] / Heydər Əliyev: Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyev yoldaşın məruzəsi: Azərbaycan KP MK plenumunun qərarı. - Bakı: Azərnəşr, 1976. - 59 s.

**1977**

13. Böyük Oktyabr sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı [Mətn] / Heydər Əliyev: Bakıda keçirilən Beynəlxalq elmi konfransda məruzə: 26 may 1977-ci il. - Bakı: Azərnəşr, 1977. - 68 s.

14. Böyük Oktyabrın 60 illiyinə hazırlıq görülməsi, istehsalın səmərəliliyini və işin keyfiyyətini yüksəltməyə dair Sov. İKP XXV qurultayın qərarlarının respublika partiya təşkilatı tərəfindən yerinə yetirilməsi haqqında [Mətn] / Heydər Əliyev:

Azərbaycan KP MK plenumunda məruzə: 20 aprel 1977-ci il. - Bakı: Azərnəşr, 1977.-66 s.

15. Kommunizmi öyrənməli: Bakının ali məktəb tələbələrinin nümayəndələri ilə, Moskvanın, Leninqradın və digər şəhərlərin ali məktəblərində oxuyan azərbaycanlılarla respublikanın partiya və sovet fəallarının görüşündə nitq [Mətn] / Heydər Əliyev: 27 avqust 1977-ci il. - Bakı: Azərnəşr, 1977. - 48 s.

16. Lenin yolu ilə kommunizmə doğru: Respublika partiya fəalları yığıncağında məruzə [Mətn] / Heydər Əliyev: 17 oktyabr 1977-ci il. - Bakı:Azərnəşr, 1977. - 47 s.

17. Lenin yolu ilə, Oktyabr bayrağı altında: Azərbaycan KP MK-nın və Azərbaycan SSR Ali Sovetinin Böyük Oktyabr sosialist inqilabının 60 illiyinə həsr edilmiş təntənəli iclasda məruzə [Mətn] / Heydər Əliyev: 5 noyabr 1977-ci il. - Bakı: Azərnəşr, 1977. - 32 s.

18. 1977-ci ilin və bütün beşilliyin sosialist öhdəliklərini şərəflə yerinə yetirməli, Böyük Oktyabrın 60 illiyini layiqincə qarşılamalı [Mətn] / Heydər Əliyev: Respublika zəhmətkeşləri kollektivlərinin nümayəndələri ilə birlikdə partiya, sovet, həmkarlar ittifaqı və komsomol təşkilatları fəallarının yığıncağında məruzə: 9 fevral 1977-ci il. - B.: Azərnəşr, 1977. - 56 s.

19. Respublika Həmkarlar İttifaqlarının mübariz vəzifələri [Mətn] / Heydər Əliyev: Respublika Həmkarlar İttifaqlarının XV qurultayında nitq: 4 mart 1977-ci il. - Bakı: Azərnəşr, 1977. - 52 s.

20. Sov. İKP-nin fəaliyyətində demokratik mərkəziyyət / Heydər Əliyev. – Bakı: Azərnəşr, 1977. - 20 s.

21. SSRİ Konstitusiyasının layihəsi və Azərbaycan SSR zəhmətkeş deputatları sovetlərinin Sov.İKP MK may (1977-ci il) plenumunun qərarlarından və Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev yoldaşın məruzəsindən irəli gələn vəzifələri haqqında [Mətn] / Heydər Əliyev: Azərbaycan SSR Ali Sovetinin doqquzuncu çağırış, beşinci sessiyasında məruzə: 7 iyun 1977-ci il / Azərbaycan SSR Ali Sovetinin qərarı. - Bakı: Azərnəşr, 1977. - 48 s.

## 1978

22. Azərbaycan partiya təşkilatının mübariz vəzifələri: Sov.İKP XXV qurultayı qərarlarının yerinə yetirilməsi gedişi və Bakıda şənliklər zamanı L.İ.Brejnev yoldaşın nitqində və çıxışlarındakı müddəaları və göstərişləri həyata keçirmək sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə: 20 oktyabr 1978-ci il Azərbaycan KP MK plenumunun qərarı [Mətn] / H.Ə.Əliyev, Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. - Bakı: Azərnəşr, 1978. - 104 s.

23. Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında: Doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında məruzə və çıxışlar: 20 və 21 aprel 1978-ci il [Mətn] / H.Ə.Əliyev, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. - Bakı: Azərnəşr, 1978. - 52 s.

24. Kommunizm uğrunda alovlu mübariz: M.Əzizbəyovun anadan olmasının 100 illiyi münasibətilə [Mətn] / H.Ə.Əliyev, Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. - Bakı: Azərnəşr, 1978. -36 s.

25. Kommunizm uğrunda mübarizədə partiyanın sədaqətli dayağı: Azərbaycan Komsomolunun XXX qurultayında nitq: 11 mart 1978-ci il [Mətn] / H.Ə.Əliyev, Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. - Bakı: Azərnəşr, 1978. - 55 s.

26. Möhkəm ideyalı, hərtərəfli inkişaf etmiş kommunizm qurucuları tərbiyə etməli: Azərbaycan müəllimlərinin VI qurultayında nitq: 18 may 1978-ci il [Mətn] / H.Ə.Əliyev, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. - Bakı: Azərnəşr, 1978. - 28 s.

27. Sov. İKP MK dekabr (1977-ci il) plenumunun yekunları və respublika partiya təşkilatının Sov.İKP MK Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.İ.Brejnev yoldaşın nitqindən irəli gələn vəzifələri haqqında [Mətn] / Heydər Əliyev, Azərbaycan KP MK plenumunda məruzə: 27 dekabr 1977-ci il. - Bakı: Azərnəşr, 1978. - 54 s.

28. Sov. İKP MK iyul (1978-ci il) plenumunun yekunları və Respublika partiya təşkilatının Sov. İKP MK plenumunun qərarlarından və "SSRİ kənd təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında" L.İ.Brejnev yoldaşın məruzəsindən irəli gələn vəzifələr barəsində Azərbaycan KP MK plenumunda məruzə,19 iyul 1978-ci il; Azərbaycan KP MK plenumunun 1978-ci il iyulun 20-də qəbul etdiyi qərar [Mətn] / H.Ə.Əliyev, Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. - Bakı: Azərnəşr, 1978. - 80 s.

29. Sov. İKP MK noyabr (1978-ci il) plenumunun yekunları və respublika partiya təşkilatının plenumun qərarlarından və Sov. İKP MK-nın Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.İ.Brejnev yoldaşın plenumdakı çıxışından irəli gələn vəzifələri haqqında Azərbaycan KP MK plenumunda məruzə: 14 dekabr 1978-ci il; Azərbaycan KP MK plenumunun qərarı [Mətn] / Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. - Bakı: Azərnəşr, 1978. - 72 s.

30. Təsərrüfatlararası kooperasiya və aqrar-sənaye inteqrasiyası əsasında kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılmasını və təmərküzləşdirilməsini daha da inkişaf etdirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri

haqqında [Mətn] / Heydər Əliyev: Azərbaycan KP MK plenumunda məruzə, 2 fevral 1978-ci il. - Bakı: Azərnəşr, 1978. - 56 s.

**1979**

31. Azərbaycan SSR kənd təsərrüfatının və bütün iqtisadiyyatın daha da dinamik inkişafını təmin etməli: Azərbaycan KP MK plenumunda məruzə və yekun nitqi [Mətn] / Heydər Əliyev: 19-20 noyabr 1979-cu il; Azərbaycan KP MK plenumunun 1979-cu il 20 noyabr tarixli qərarı. - Bakı: Azərnəşr, 1979. - 156 s.

32. Bəstəkarın yüksək vəzifəsi və amalı: Respublika bəstəkarları ilə Azərbaycan KP MK-da keçirilmiş görüşdə çıxış: 1 oktyabr 1979-cu il [Mətn] / H.Ə.Əliyev, Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. - Bakı: Azərnəşr, 1979. - 33 s.

33. Fəal həyat mövqeyinin formalaşdırılması [Mətn] / Heydər Əliyev.- Bakı, 1979.- 30 s.

34. Fəal həyat mövqeyinin formalaşdırılması: Mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri: Ümumittifaq elmi-praktik konfransda məruzə: 25 aprel 1979-cu il [Mətn] / H.Ə.Əliyev, Sov. İKP MK-nın Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. - Bakı: Azərnəşr, 1979. - 63 s.

35. "İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında" Sov. İKP MK-nın qərarını yerinə yetirmək sahəsində respublika partiya təşkilatının vəzifələri barəsində: Azərbaycan KP MK plenumunda məruzə, 17 iyul 1979-cu il [Mətn] / H.Ə.Əliyev, Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi.- Bakı: Azərnəşr, 1979. - 76 s.

36. Kommunizm uğrunda alovlu mübariz: Məşədi Əzizbəyovun anadan olmasının 100 illiyi münasibətilə təntənəli yığıncaqda məruzə [Mətn] / Heydər Əliyev, 9 aprel 1976-cı il; Məşədi Əzizbəyovun abidəsinin təntənəli açılışında nitq, 8 aprel 1976-cı il /Heydər Əliyev.- B.: Azərnəşr, 1979.- 44 s.

37. Partiyanın irəli sürdüyü vəzifələri mübarizcəsinə yerinə yetirək / Heydər Əliyev: 43-cü Bakı şəhər partiya konfransında nitq: 24 yanvar 1979-cu il [Mətn] / H.Ə.Əliyev, Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. Bakı: Azərnəşr, 1979. - 72 s.

38. Vicdanımızın normaları ilə [Mətn] / H.Ə.Əliyev, Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi. - Bakı: Azərnəşr, 1979. - 24 s.

**1980**

39. Azərbaycan ali məktəblərinin işini partiyanın yüksək tələbləri səviyyəsinə qaldıraq [Mətn] / Heydər Əliyev: Ali məktəb işçilərinin respublika müşavirəsində nitq: 28 may 1980-ci il. - Bakı: Azərnəşr, 1980. - 48 s.

40. Azərbaycan SSR sovet xalqlarının qardaşlıq ailəsində: Azərbaycan KP MK-nın və Azərbaycan SSR Ali Sovetinin, Azərbaycan SSR-in və Azərbaycan KP-nin 50 illiyinə həsr olunmuş təntənəli iclasda məruzə [Mətn] / Heydər Əliyev: 2 oktyabr 1970-ci il. - Bakı: Azərnəşr, 1980. - 33 s.

41. Azərbaycan SSR-in və Azərbaycan Kommunist Partiyasının 60 illiyi [Mətn] / Heydər Əliyev: Azərbaycan KP MK-nın və Azərbaycan KP-nın 60 illiyinə həsr edilmiş təntənəli iclasda məruzə: 25 aprel 1980-ci il. - Bakı: Azərnəşr, 1980. - 53 s.

42. Bakı kommunasının alovlu qəlbi: P.A.Caparidzenin anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli yığıncaqda məruzə [Mətn] / Heydər Əliyev: Bakı, 18 yanvar 1980-ci il. - Bakı: Azərnəşr, 1980. - 52 s.

